Azərbaycan Arxeologiyası Volume 25 № 1 2023, 8-20
Khazar University Press DOI: 10.5782/2218-0346.2023.25.1.8

# Orta əsr Şəmkir şəhər yerindən tapılmış daş qazan

**Tarix Dostiyev**
Bakı Dövlət Universiteti
dostiyev.tarikh@mail.ru

**Açar sözlər:** Şəmkir şəhər yeri, orta əsr, talk daşı, daş qazan, Xarəzm, Xorasan

## Giriş

Şəmkir şəhər yeri Şəmkir rayonunun Qədimqala kəndinin şimalında, Şəmkirçayın sahilində, 40˚50΄70,10΄΄- N, 46˚07΄24,10΄΄- E koordinatlarda, dəniz səviyyəsindən 316, 3 m hündürlükdə yerləşir. Şəhər yerində 2006-2022-ci illərdə aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış çoxsaylı artefaktlar müxtəlif təyinatlı olub alət və silahlardan, məişətdə işlədilən qab-qacaqdan, pəncərə şüşəsi nümunələrindən, inşaat materiallarından, bəzək əşyalarından və sikkələrdən ibarətdir. Həmin tapıntılar şəhər sakinlərinin istehsal mədəniyyəti, hərb sənəti, məişəti, ticarət əlaqələri, estetik idealları və zövqlərinə dair qiymətli mənbələrdir. Tapıntılar arasında şəhər sakinlərinin məişəti ilə bağlı artefaktlar kütləviliyi ilə fərqlənir.

Orta əsr Şəmkir şəhər sakinlərinin məişətində saxsı, fayans, metal, şüşədən müxtəlif təyinatlı qablarla yanaşı həm də məhdud miqdarda daş qablardan istifadə olunurdu və arxeoloji qazıntılar zamanı onların bəzi nümunələri aşkarlanmışdır. Talk daşından qazan qırıqları, Zəyəm daşından qapaq, piydanlar belə tapıntılardandır.

## Müzakirə

Talk daşından qazan qırıqları 2014-cü ildə, narınqalada, IV qazıntı sahəsinin 7M saylı kvadratında səlcuq dövrü mədəni təbəqəsindən tapılmışdır. Fraqmentlər çəlləkvari formalı gövdəsi, yastılaşdırılmış, kənarı içəriyə meylli ağzı olan qabın, görünür, iri tutumlu qazanın qırıqlarıdır. Mühafizə olunmuş fraqmentlərin hündürlüyü 13,4 sm təşkil edir. Fraqmentlərə əsasən onun böyük tutumlu qazana məxsusluğunu ehtimal etmək olar. Qabın divarı bayır tərəfdən şaquli və üfüqi kanelyur naxışla, qabarıq rombların əmələ gətirdiyi dar, uzun tora bənzər naxışla bəzədilib. Ağzından alt tərəfdə bəzəkli çıxıntı,

görünür, təkcə dekorativ deyil, həm də tutacaq təyinatına malik olub. Kəsikdə daş boz göy rəngdədir. Bayır tərəfdən, görünür, od üzərində olduğundan, hiss təbəqəsindən qonur rəng almışdır (şəkil 1).



**Şəkil 1.** Daş qazan

Oxşar formalı talk daşından böyük tutumlu qazanlar Yartı-depe, Sauran, Bolqar qazıntılarından məlumdur (5, c. 1000, рис. 8; 12, c. 317; 13, c. 53, рис. 4; 15, c. 253, рис. 15). Yartı-depe və Sauran abidələrindən tapılan böyük tutumlu, arxeoloji bütöv nüsxələrə əsasən Şəmkir şəhər yerindən aşkarlanmış qazan nümunəsinin hündürlüyünün 25 sm-ə qədər, ağzının diametrinin isə 30 sm civarında olduğunu ehtimal edə bilərik.

Talk daşının yüksək hərarətə davamlılığı, istilik keçiriciliyi, istiliyi və soyuğu uzun müddət saxlaması və yaxşı emal olunma xassələri onun məişət avadanlığının, inşaat materiallarının hazırlanmasında əlverişli xammal çevrilməsini şərtləndirmişdi (**19**). Talk daşından ən qədin artefaktlar üst paleolitə aid edilən bəzək əşyalarıdır (14, c. 117). Talk daşından hazırlanmış miəşət qabları, xüsusilə mətbəxdə işlədilən tava və qazanlar orta əsrlərdə geniş arealda yayılmışdı, onların nümunələri İranın, Mərkəzi Asiyanın, Qafqazın, Şərqi Avropanın orta əsr abidələrindən yaxşı məlumdur. Orta əsrlərdə Mərkəzi Asiya və İranın bütün şəhərlərində talk daşından hazırlanmış qazanlar məişətdə geniş istifadə olunurdu (4, c. 168).

Orta əsrlərdə müsəlman Şərqində talk daşından hazırlanan məişət avadanlığının, o cümlədən qazanların başlıca ixrac mərkəzi Mərkəzi Asiya – Xarəzm və Xorasan idi.

Arxeoloji və geoloji tədqiqatlarda Xarəzmdə Sultanuizdağda talk daşının intensiv çıxarılmasını təsdiqləmişdir (7, c. 99). Talk daşı hasilatı Sultanuizdağın mərkəzi hissəsində və əsasən Kazantau, Zinelbulaksay və Qızılsay yataqlarında yerləşir. Az sayda mədən işləri Qızılsayın aşağı axarında, Duşebulak quyularının şimalında, Kəhrəli quyusu ərazisində və Menajat dağı yaxınlığında (Sultanbabanın şimal-şərqində) qeyd alınmışdır (20).

Xarəzmdə Sultanuizdağda talk daşının çıxarılmasına dair mənbələrdə ilk məlumat e.ə. I minilliyinin ortalarına təsadüf edir. Massonun fikrincə, Əhəməni sarayının kitabəsində adı çəkilən talk daşı yatağı Sultanuizdağda yerləşirmiş (10, c.18). Xarəzmin orta əsr abidələrindən arxeoloji qazıntılar nəticəsində talk daşından hazırlanmış qazanlar, tavalar, küpələr, kasa və boşqablar, çıraqlar və s. ibarət zəngin kolleksiyası toplanmışdır. Bu kolleksiyada qazanlar tam üstünlük təşkil edir. Talk daşından hazırlanmış qazanların uzun müddət aşınmadan, köhnəlmədən istəfadə edildiyi bildirilir. XIV əsrin birinci yarısında yaşamış Şihabəddin əl-Öməri Xarəzmin daş qazınların yüksək keyfiyyətini vurğulayaraq yazır: "Orada daş karxanasından çıxarılan daşlardan qazanlar hazırlayırlar, həmin qazanlar 60 il xarab olmur" (16, c. 242).

M.Ş.Kdırniyazov Xarəzmin daş qazınlarını forma və tutumuna görə üç tipa ayırır (7, c. 100).

Tədqiqatçılar Mərv şəhərinin Sultanqala ərazisindən talk daşından hazırlanmış qazanların kütləvi tapılmasını və onların XII- XIII əsrin əvvəllərində geniş yayıldığını xüsusi vurğulayırlar (6, c. 153-154). Bəzi tədqiqatçılar Türkmənistanda, Mərvin Sultanqala şəhər yerindən tapılan talk daşından qazanların Xarəzmdən deyil, Xorasandan, Nişapurdan idxal olunduğunu bildirirlər (8, c. 126-132). "Hüdud əl-Aləm"dən məlum olur ki, Tusun yaxınlığındakı Naukan dağlarındakı karxanalardan çıxarılan daşlardan qazanlar, küpələr hazırlayır və Xorasanın digər şəhərlərinə ixrac olunurdu (2, p. 103). E. Smaqulov da daş qazanların Xorasan şəhərlərinin məişəti üçün səciyyəvi olduğunu xüsusi vurğulayır (15, c. 253). Yartı-depe qazıntıları müxtəlif tutumlarda, naxış və ağızlarının fərqli işlənməsi diqqəti çəkən çox saylı talk daşından hazırlanan qazanların aşkarlanması ilə diqqəti çəkməyə bilməz. A.Babayev iri tutumlu qazanların ağzının düz, kiçik tutumlu qazanların isə ağzının kənarının bayıra çıxıntılı olmasını bildirir (5, c. 100, рис. 8)

Talk daşından hazırlanmış qazanların Şərqi Avropada idxalı Volqa Bolqarıstanı vasitəsi ilə gerçəkləşdirilirdi. S.İ.Milovanov hesab edir ki, daş qazanlar Orta Asiyadan Qədim Rus şəhərlərinə Volqa Bolqarıstanı vasitəsi gətirilə bilərdi (11, c. 86). Arxeoloji dəlillər bu mülahizənin doğruluğunu təsdiqləyir. Təsadüfi deyildir ki, Volqa Bolqarıstanı şəhərlərində talk daşından hazırlanmış qazanların nümunələri daha çox məlumdur. Bolqar şəhərinin arxeoloji qazıntılarından bu tip qazanların 50 fraqmenti (12, c. 317), Bilyardan isə 55 nümunəsi (18, c. 89–90) tapılıb. Bolqar şəhərindən tapılan talk daşından qazanların erkən nümunəsi XII-XIII əsrin əvvəllərinə aid edilir. Adətən, talk daşından qazan nümunələri Bolqar şəhərinin zəngin komplekslərdə aşkarlanır. Bəzi nümunələrdə təmir izlərinin olması, şübhəsiz ki, onların yüksək qiymətləndirilməsinə, hətta qırılan qazanların təmir edilərək istifadə olunmasına dəlalət edir (13, c. 51). Daş qazanların təmir edilərək istifadə edilməsi faktı Mərkəzi Asiyada aparılan tədqiqatlarla da təsdiqlənmişdir (5, c. 100; 15, c. 253).

Əbu Reyhan əl-Biruninin məlumatından aydın olur ki, daş qazanlar təkcə mətbəx deyil, həm də sənətkarlıqda, kəhrabanın süni boyanmasında da tətbiq olunurmuş. XI əsrin görkəmli alimi "Mineralogiya" əsərində kəhraba muncuqlardan bəhs edərkən qeyd edir ki, "onlar ya təbii rənglərində saxlayır, ya da əvvəlcə mis qazanda qaynayan zəy məhllulunda qırmızı rəngə boyayır, sonra isə daş qazanda bərkiyənədək səndəl ağacının məhlulunda qaynadılır" ( 3, c. 244). Yazılı mənbənin bu məlumatını arxeoloji tədqiqatlarla təsdiqini tapmışdır. Misal üçün, Qədim Ryazanın arxeoloji qazıntısından tapılan daş qazan xammal olaraq kəhraban istifadə olunan XII-XIII əsrlərə aid istehsal kompleksindən tapılmışdır. Tədqiqatçılar bu qazanın istehsalın təşkili ilə bağlı Xarəzmdən ticarət vasitəsilə Qədim Ryazana gətirildiyini bildirirlər. Vladimirdən tapılan, XII əsrin sonu-XIII əsrin ilk qərinəsinə aid edilən daş qazanın içərisində isə 214 kq kəhraba aşkarlanmışdır (11, c. 86). Bunu da qeyd etmək lazımdır ki, araşdırmalara görə talk daşından hazırlanan qazanlar ona davamlı olur və yüksək temperaturla əlaqəli sahələrdə uğurla tətbiq olunurdu (17, c. 319).

**Nəticə**

Yuxarıda qeyd olunanlara yekun vuraraq belə qənaətə gəlmək olar ki, Şəmkir şəhər yerindən tapılan, XI-XII əsrlərə aid daş qazan fraqmentləri idxal məhsuludur. Talk daşının yataqlarının Xorasan və Xarəzmdə olması, Türkmənistan, Özbəkistan və Qazaxıstanın orta əsr abidələrindən aşkarlanan daş

qazan kolleksiyalarının zənginliyi tədqiq olunan artefaktın Mərkəzi Asiyada hazırlanmasını və Şəmkirə gətirilməsini təsdiqləməyə imkan verir. Talk daşından hazırlanmış qazan nümunəsinin Şəmkir şəhərinin narınqalasından tapılması həmin əmtəənin yüksək qiymətindən və belə qablardan şəhərin imkanlı sakinlərinin istifadə etməsindən xəbər verir.

**Ədəbiyyat**


1. Dostiyev T.M. Orta əsr Şəmkir şəhərinin işıqlandırılması vasitələri // Bakı universitetinin xəbərləri, ser. Hümanitar, 2019, №3, s.63-71
2. “Hudud al-Alam” – “The Regıons of the World” a persıan geography 372 A.H.—982 A.D. Translated and explaıned by V. Minorsky. London, 1937, 524 p.
3. Абу-р-Райхан Мухаммед ибн Ахмед ал-Бируни. Собрание сведений для познания драгоценностей. Минералогия / пер. с араб. А. М. Беленицкого. 2-е изд., доп. и испр. СПб. : Петербургское лингвистическое общество, 2011. 600 с.
4. Атагаррыев Е. Средневековый Дехистан. Ленинград: Наука, 1986, 176 с.
5. Бабаев А. Раскопки на Ярты-депе // Новые археологические открытия в Туркменистане. Ашхабад: «Ылым», 1982, с. 85-102.
6. Гельдыниязова О.А. Символика казана у туркмен // Мировоззрение население Южной Сибири и Центральной Азии в исторической ретроспективе. Барнаул: Изд-во Алт. Ун-та, 2015. С. 152-154.
7. Кдырниязов М.Ш. Материальная культура городов Хорезма в XIII–XIV вв. Нукус, Каракалпакстан, 1989. 176 с.
8. Кураева Л.А. Средневековая привозная каменная утварь из Мерва и Нисы // Труды ЮТКАЭ, т. XIV, Ашхабад: «Ылым», 1969, с. 217-226.
9. Лунина С.Б. О культурных связях средневекового Мерва // Средняя Азия в древности и средневековье. История и культура Москва: Наука, 1977, с. 126-132
10. Массон М.Е. К истории горного дела на территории Узбекистана. Ташкент: Изд-во АН Узбекистана, 1953, 75 с.
11. Милованов С. И. Новые находки каменных котлов на территории древней Руси // КСИА, 2013, Вып. 228, с. 83-86
12. Полубояринова М. Д. Каменные котлы из Болгара // Восточная Европа в Средневековье: К 80-летию Валентина Васильевича Седова. Москва: Наука, 2004, с. 316-323.
13. Полубояринова М. Д. Торговля Болгара // Город Болгар: культура, искусство, торговля. Москва: Наука, 2008, с. 206-102.
14. Сериков Ю.Б. К вопросу о сакральных свойствах талька // Челябинский гуманитарий, 2011, №4 (17), с. 117-130.

15. Смагулов Е.А. Древний Сауран. Алматы, 2011, 436 с.
16. Тизенгаузен В.Г. Сборник материалов относящиеся к истории Золотой Орды. Извлечения из сочинений арабских. Т.1. СПб.,1884. 297 с.
17. Тургано Б.К., Абдуллаева З. Ремесло Хорезма в период Анущтегин хорезмшахов // EPRA International Journal of Research and Development, 2020, vol. 5, №10, с. 317-320
18. Хузин Ф. Ш., Дроздова Г. И. Каменная и металлическая посуда // Посуда Биляра. Казань. 1986.
19. Шеков В. А., Мясникова О. В., Иванов А. А. Тальковый камень: его свойства и пути использования // Технологическая минералогия, методы переработки минерального сырья и новые материалы. Сборник науч. ст. по матер. IV Российского семинара по технологической минералогии. – Петрозаводск, 2010, с. 170–174.
20. Хорезмийский очаг месторождений талька // https://pandia.ru/text/79/577/34582-10.php

## Summary

## Stone cauldron from the medieval city of Shamkir

**Tarikh Dostiev**

The article examines fragments of a barrel-shaped cauldron made of soapstone, found on the territory of the citadel (Naryngala) of the city of Shamkir. Unlike local stoneware and equipment made from Zayama stone, this cauldron was an imported product, apparently brought here from Central Asia. Due to the high fire resistance of soapstone, these boilers have been used with great success in industries associated with high temperatures. In the Middle Ages, the main centers for the production of talc cauldrons were in Khorezm and Khorasan. In the study of the topic, descriptive, typological and comparative methods of analysis were used. The novelty of the article lies in the introduction into scientific circulation of a cauldron made of soapstone found in the Shamkir settlement, and the identification of the center of production of this sample of an artifact, which is not typical for Azerbaijani medieval kitchen utensils and is undoubtedly an imported product.
**Keywords:** Shamkir city site, Middle Ages, talc, stone cauldron, Khorezm, Khorasan

## Резюме

## Каменный котел из средневекового города Шамкир

**Тарих Достиев**

В статье рассматриваются фрагменты котла боченкообразной формы из талькового камня, найденные на территории цитадели (Нарынгала) города Шамкир. В отличие от местной каменной посуды и оборудования из заямского камня, этот котел был привозным изделием, по-видимому, привезенным сюда из Центральной Азии. В силу высокой огнеупорности талькового камня эти котлы с большим успехом применялись в отраслях, связанных с высокими температурами. В средние века основные центры производства котлов из талька находились в Хорезме и Хорасане. В исследовании темы использовались описательный, типологический и сравнительный методы анализа. Новизна статьи заключается во введении в научный оборот котла из талькового камня, найденного на городище Шамкир, и выявлении центра производства этого образца артефакта, который не характерен для азербайджанской средневековой кухонной утвари и, несомненно, является импортным продуктом.
**Ключевые слова**: Городище Шамкир, средние века, тальк, каменный котел, Хорезм, Хорасан